**Uşaqların zərərli informasiyadan qorunması haqqında Azərbaycan Respublikasının Qanunu (çıxarışlar)**

**Maddə 1. Əsas anlayışlar**

**1.0.** Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

**1.0.12.** uşaqların həyat və sağlamlıqlarına təhlükə yaradan əməlləri təbliğ edən informasiya – uşaqların həyatına, fiziki və psixi sağlamlığına təhlükə yaradan, o cümlədən intiharı, odlu silah və partlayıcı maddələrdən, narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarından, alkoqollu içkilərdən və tütün məmulatlarından istifadəni təbliğ edən informasiya.

**Maddə 3. Uşaqların zərərli informasiyadan qorunması sahəsində əsas prinsiplər**

**3.0.** Uşaqların zərərli informasiyadan qorunmasının əsas prinsipləri aşağıdakılardır:

**3.0.3.** zorakılığın, qəddarlığın, narkotik vasitələrin və psixotrop maddələrin, alkoqollu içkilərin və tütün məmulatlarının, cəmiyyət əleyhinə davranışın, pornoqrafik xarakterli informasiyanın təbliğinin yolverilməzliyi;

**Maddə 19. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 oktyabr 2018-ci il
№ 1310-VQ